# Ashat Kesikbayev:
# ""Türk dünyasına baxış - 2040" sənədində qeyd olunan fəaliyyət istiqamətləri üzrə birgə səylər böyük əhəmiyyət kəsb edir"

**Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley tədbirlərində iştirak edən Beynəlxalq Türk Akademiyasının vitse-prezidenti siyasi elmlər üzrə fəlsəfə doktoru Ashat Kesikbayev öz təəssüratlarını bizimlə bölüşüb:**



- Beynəlxalq Türk Akademiyası (BTA) Azərbaycan Milli Elmlər Akademiyası ilə bir çox sahələrdə geniş və dərin əməkdaşlıq əlaqələri qurub. AMEA BTA nəzdində yaradılan Türk Dünyası Akademiyaları Birliyinin fəal üzvlərindən biridir.

BTA və AMEA-nın Arxeologiya və Antropologiya, Nəsimi adına Dilçilik, Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya, Folklor, Nizami Gəncəvi adına Ədəbiyyat, akademik Ziya Bünyadov adına Şərqşünaslıq institutları arasında tarix, dilçilik, ədəbiyyat, mədəniyyət və arxeologiya sahələrində iş birliyi yaranıb.

Birgə tədqiqat layihələri, elmi nəşrlər, konfranslar və simpoziumlar vasitəsilə bilik və təcrübə mübadiləsi həyata keçirilir. Akademiyanın institutları Türk dünyasının ortaq əlifbasının hazırlanması, ortaq türk tarixinin yazılması, Türk Dünyası Arxeologiya Birliyinin yaradılması kimi mühüm layihələrə dəyərli töhfələr verir.

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə qardaş Azərbaycanın bütün elmi ictimaiyyətini ürəkdən təbrik edirəm. AMEA-nın Azərbaycanın elmi inkişafına və Türk dünyasının ortaq elmi irsinin qorunub saxlanılmasına verdiyi töhfələri yüksək qiymətləndiririk.

Azərbaycan Milli Elmlər Akademiyasının hörmətli rəhbər heyətinə və elmi işçilərinə uğurlar, cansağlığı, firavanlıq arzulayırıq. Qurumun cəmiyyətdə öz nüfuzunu daha da gücləndirəcəyinə inanırıq.

Bundan əlavə, bu il BTA-nın yaradılmasının 15 illiyi və AMEA-nın üzvü olduğu Türk Dünyası Akademiyaları Birliyinin 10 illiyi tamam olur. Fürsətdən istifadə edərək, Türk dünyasının elmi inkişafı üçün çalışan bütün qurumlarımızı da təbrik etmək istəyirəm.

Türk dünyasının gündəmində olan müasir məsələlər - ətraf mühitin qorunması, süni intellekt, davamlı inkişaf, habelə "Türk dünyasına baxış - 2040" sənədində qeyd olunan fəaliyyət istiqamətləri üzrə birgə səylər böyük əhəmiyyət kəsb edir. Beynəlxalq Türk Akademiyası bununla bağlı Azərbaycan Milli Elmlər Akademiyası ilə müştərək təşəbbüsləri bundan sonra da qətiyyətlə dəstəkləyəcək.